# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

**Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nı Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175; 2000, № 8 (III kitab), maddə 615; 2001, № 10, maddə 640, № 12, maddələr 754, 755; 2003, № 10, maddələr 546, 568, 571, 585; 2004, № 12, maddə 1005; 2005, № 2, maddə 69, № 3, maddə 170, № 7, maddə 592, № 8, maddə 720, № 12, maddələr 1104, 1112; 2006, № 9, maddə 743; 2007, № 3, maddə 234, № 8, maddə 766; 2008, № 6, maddə 498, № 9, maddə 798, № 11, maddə 969; 2009, № 2, maddə 70, № 4, maddə 226, № 10, maddələr 776, 779; 2010, № 2, maddə 80, № 4, maddə 296, № 5, maddə 389; 2013, № 9, maddə 1056; 2014, № 4, maddə 364, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 164 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Preambula üzrə:

1.1. birinci hissədə "idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi" sözlərindən sonra "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (bundan sonra - Gömrük Məcəlləsi), "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu, onlara uyğun olaraq qəbul edilmiş digər normativ hüquqi aktlarla, o cümlədən" sözləri əlavə edilsin;

1.2. ikinci hissə ləğv edilsin.

2. 1.1-ci bənddə "şəxslər sərbəstdirlər" sözlərindən sonra ",Gömrük Məcəlləsində" sözləri əlavə edilsin.

3. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:
"1.2. İxrac olunan mallar gömrük orqanlarına bəyan edilməlidir.".

4. 2 - 5-ci hissələr, 6.3-cü bənd, 9-cu və 10-cu hissələr, 14.4-cü bənd, 14.5.1-ci, 14.5.2-ci yarımbəndlər, 14.6-cı və 14.7-ci bəndlər ləğv edilsin.

5. 6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:
"6.1. İdxal olunan mallar gömrük orqanlarına bəyan edilməlidir.".

6. 6.2-ci bənddə "dəyərlərinə nəzarət" sözləri "dəyərinin müəyyən edilməsinin düzgünlüyünə nəzarət Gömrük Məcəlləsi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

7. 14.1-ci bənd aşağıdakı redaksiyada verilsin:
"14.1. Malların gömrük rəsmiləşdirilməsi Gömrük Məcəlləsinə uyğun olaraq həyata keçirilir. Bəyanetmənin forması və qaydaları, həmçinin gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilərək rəsmi nəşrlərdə dərc olunur, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi internet saytlarında yerləşdirilir.".

8. 14.9-cu bənddə "Azərbaycan Respublikasının" sözlərindən sonra "Prezidentinə," sözü əlavə edilsin və "məlumat" sözü "xarici ticarətin gömrük statistikasının məlumatlarını" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
9.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
9.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
9.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
9.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

11. Bu Fərman 2014-cü il noyabrın 1-dən qüvvəyə minir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "9" iyul 2014-cü il

№ 223